# Elmi-praktik konfrans Ulu Öndərin 100 illiyinə həsr edilmişdir

Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Tətbiqi elmlər və aqrar sahənin inkişafına yeni baxışlar və yanaşmalar" mövzusunda respublika elmi-praktik konfransı keçirilmişdir.



Konfrans iştirakçıları əvvəlcə Heydər Əliyevin ADAU-dakı büstü önünə tər çiçəklər düzmüşlər. Sonra Ulu Öndərin və torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

Konfransı giriş sözü ilə universitetin rektor vəzifəsini icra edən Zəfər Qurbanov açaraq Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra bir çox sahələr kimi, kənd təsərrüfatında da mövcud olan durğunluğun aradan qaldırılmasında əvəzsiz xidmətlərindən danışmış, başlanan islahatların Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini, onun rəhbərliyi ilə ölkəmizdə aqrar sahənin sürətlə inkişaf etdiyini diqqətə çatdırmışdır.

Sonra çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov 1969-1982-ci illərdə Heydər Əliyevin yüksək idarəçilik qabiliyyəti nəticəsində Azərbaycanda kənd təsərrüfatının bütün sahələrində əsaslı dönüş yarandığını və Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində az bir zamanda ölkəmizdə iqtisadi tərəqqinin əldə edildiyini qeyd etmişdir.

Ulu Öndər Heydər Əliyevin ölkəmizdə kənd təsərrüfatının inkişafı ilə bağlı gördüyü işlərdən bəhs edən videoçarx nümayiş etdirildikdən sonra Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru İlham Qaraqurbanlının "Seleksiya-toxumçuluq işlərinə ənənəvi və müasir yanaşmalar", Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru Vüqar Səlimovun "İnnovativ becərilmə texnologiyası, mühafizəsi və aqroekologiyası", Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu Publik Hüquqi Şəxs İdarə Heyətinin sədri Elmar Allahverdiyevin "Seleksiyası, fiziologiyası və toxumçuluğu" və ADAU-nun Bağçılıq kafedrasının müdiri Allahverdi Seyidovun "Bağçılıqda kadr hazırlığı" mövzularında məruzələri dinlənilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 1 aprel.- S.7.